Research Type: Review Article
Received: June 15, 2023
Accepted: July 18, 2023

# PERSONALITY AND SOCIETY IN THE NEW CONDITION RECONSTRUCTION OF THE TRADITIONAL VALUE SYSTEMS NEED FOR EVALUATION

Yaqut ƏLİYEVA[1]

**Abstract**

The article examines the mutual value systems of personality and society, and talks about the reevaluation of values in new conditions. At the same time, a comparative analysis of Eastern and Western values, which are integrated in a new way in Azerbaijani society, is conducted, and the influence of market values on the formation of personality is considered.

In transitional periods of social development, the problem of re-evaluation of values always arises. Denial of old values leads to sharp social changes, loss of personality orientation (confusion) and uniqueness, i.e. denial of old forms of life of society and personality. The main methods of scientific cognition, including induction, deduction, systematic-comparative analysis and synthesis methods, were used at different stages of the research. A systematic analysis of the literature on the topic was carried out.

As a result of the research, it is concluded that today in Azerbaijan there is an active process of building a civil society and a legal state. Both the individual and the society as a whole are required to show some flexibility and adapt to new conditions. The global problems facing society today can only be solved as a result of conscious and purposeful efforts. However, for this, it is necessary for people to have information about the processes taking place in the country and the world, and for the practical implementation of the process of creating the norms of the adequate system of moral values. This task also includes preparing society for the emerging system and actively adhering to known norms.

**Keywords**: Values, System, Identity, Society, Transformation, Globalization.

[1] Assoc. Prof., Baku State University, Faculty of Social Sciences and Psychology, Sociology, Baku / Azerbaijan, yaqutaliyeva@bsu.edu.az, yagut.aliyeva@gmail.com, ORCID: 0000-0003-2051-8416

Makale Türü: İnceleme Makalesi
Başvuru: 15 Haziran 2023
Kabul: 18 Temmuz 2023

# YENİ ŞƏRAİTDƏ ŞƏXSİYYƏT VƏ CƏMİYYƏTİN ƏNƏNƏVİ DƏYƏRLƏR SİSTEMLƏRİNİN YENİDƏN QİYMƏTLƏNDİRİLMƏSİ ZƏRURƏTİ

Yaqut ƏLİYEVA[1]

**Xülasə**

Məqalədə şəxsiyyət və cəmiyyətin qarşılıqlı dəyərlər sistemləri tədqiq olunur, yeni şəraitdə dəyərlərin yenidən qiymətləndirilməsindən bəhs edilir. Eyni zamanda Azərbaycan cəmiyyətində yeni tərzdə inteqrsiya olunan Şərq və Qərb dəyərlərinin müqayisəli təhlili aparılır və şəxsiyyətin formalaşmasına bazar dəyərlərinin təsiri nəzərdən keçirilir.

İctimai inkişafın keçid dövrlərində həmişə dəyərlərin yenidən qiymətləndirilməsi problemi yaranır. Köhnə dəyərlərin inkarı kəskin sosial dəyişikliklərə, şəxsiyətin oriyentasiyasının itirməsinə (çaşqınlığa) və bənzərsizliyə gətirir, yəni cəmiyyət və şəxsiyyətin həyatının köhnə formalarının inkarına. Tədqiqatın müxtəlif mərhələlərində elmi idrakın əsas metodlarından, o cümlədən induksiya, deduksiya, sistemli-müqayisəli təhlil və sintez metodlarından istifadə edilmişdir. Mövzu ilə bağlı ədəbiyyatın sistemli təhlili aparılmışdır.

Tədqiqatın nəticəsində belə qənayətə gəlinir ki, bu gün Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlət qurulmasının aktiv prosesi gedir. Həm ayrı-ayrı şəxsiyyətdən, həm də bütövlükdə cəmiyyətdən yeni şəraitə müəyyən çeviklik göstərməyi və adaptasiyası tələb olunur. Bu gün cəmiyyətin qarşılaşdığı qlobal problemlər yalnız dərk ediləcək və müəyyən məqsədə yönəldilmiş səylər nəticəsində həll oluna bilər. Ancaq, bunun üçün insanların ölkədə və dünyada baş verən proseslər haqqında informasiyaya malik olması və adekvat mənəvi dəyərlər sistemi normalarının yaradılması prosesinin praktik surətdə reallaşdırılması zəruridir. Bu vəzifəyə həm də cəmiyyətin yeni yaranmaqda olan sistemə hazırlanması və fəal şəkildə məlum normalara qoşulması daxildir.

**Açar Sözlər:** Dəyərlər, Sistem, Şəxsiyyət, Cəmiyyət, Transformasiya, Qloballaşma.

[1] Bakı Dövlət Universiteti, Sosial elmlərvə psixologiya fakültəsinin Sosoliologiya kafedrasının dosenti, sosiologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan, yaqutaliyeva@bsu.edu.az, yagut.aliyeva@gmail.com, ORCID: 0000-0003-2051-8416

## GİRİŞ

Məlumdur ki, cəmiyyət özü-özlüyündə mürəkkəb çoxfaktorlu sistemdir. Bu sistemin elementləri cəmiyyətin maddi və mənəvi həyatı, habelə onların tərkib hissələri olaraq altelementləri bir-biri ilə sıx koordinasiya və subordinasiya əlaqəsindədir. Başqa sözlə, onlar şaquli və üfuqi əlaqədədirlər. Bir tərəfdən siyasət, hüquq, incəsənət, əxlaq, din, elm və s. kimi sferalar üfuqi əlaqələr sisteminin elementləridir. Onlar ya eyni, ya da əks istiqamətli qarşılıqlı əlaqədədirlər. İstənilən halda onların inkişafını qarşılıqlı əlaqəsiz və bir-birinə qarşılıqlı təsirsiz təsəvvür etmək mümkün deyildir. Digər tərəfdən, sözsüz ki, sistemin elementlərindən biri özündə sistem yaratma funksiyasını əks etdirir. Bu elementlərindən hansının əsas götürülməsindən asılı olaraq, bu və ya digər sosial-fəlsəfi konsepsiya formalaşır.

Aydındır ki, hər bir sosial-iqtisadi dünya nizamında cəmiyyətin quruluşuna adekvat olan müəyyən mənəvi dəyərlər sistemi hökmranlıq edir. Bunsuz cəmiyyət mövcud olub inkişaf edə bilməz. Hər hansı bir cəmiyyətin mənəvi dəyərlər sistemi bir tərəfdən maddi həyat sistemi ilə uygunlaşır, digər tərəfdən mənəvi dəyərlərin istənilən altsistemi - siyasi, hüquqi, əxlaqi, estetik, dini və s. qarşılıqlı surətdə bir-birini şərtləndirir və müəyyən edir. Məhz bu məqam ictimai sistemin normal fəaliyyətinin zəruri şərtlərindən biridir. Ancaq sosial fəlakətlər zamanı (müharibələr, inqilablar, cevrilişlər), dəyərlərin kəmiyyətcə dəyişilməsi baş verir, yəni bir keyfiyyət halından digərinə əsaslı keçid prosesində mənəvi dəyərlərin yuxarıda qeyd etdiyimiz subordinasiya və koordinasiyası əlaqəsi az və çox dərəcədə pozulur. Bəzi hallarda bu bir sosial-iqtisadi sistemdən başqasına keçməsi ilə müşaiyət olunur, digər hallarda isə mövcud olan sistemin elementlərinin yeniləşdirilməsi və təkmilləşdirilməsi zərurətini doğurur. İstənilən halda burda həm maddi, həm mənəvi dəyərlərin yenidən qiymətləndirilməsinə zərurət yaranır.

Belə zərurət onunla şərtlənir ki, yeni və ya yeniləşmə tələb edən dəyərlərlə, təşəkkül tapmaqda olan yeni reallıqlar şəraitində mövcud olan, bu və ya digər dərəcədə vaxtı keçmiş ənəvi dəyərlər və normalar arasında "böhran"lı məqamlar yaranır; cəmiyyət tarixində bunları ekstremal adlandırmaq qəbul edilmiş və bura bir sıra problemli situasiyalar daxil edilmişdir. Dəyərlər sistemlərinin yenidən qiymətləndirməsinin optimallığı təmin edilmədən və mənəvi dəyərlərin adekvat normaları yaradılmadan cəmiyyətin effektiv, uğurlu inkişafı mümkün deyildir. "Yenidən qiymətləndirmə" dedikdə iki vəzifə təzərdə tutulur: bir tərəfdən, mövcud vəziyyətin elmi təhlili və ehtimal olunan meyllərin və istiqamətlərin işlənib hazırlaması. Digər tərəfdən isə adekvat mənəvi dəyərlər sistemi normalarının yaradılması prosesinin praktik surətdə reallaşdırılması. Bu vəzifəyə həm də cəmiyyətin yeni yaranmaqda olan sistemə hazırlanması və fəal şəkildə məlum normalara qoşulması daxildir daxildir (Aliyeva 2003:144-145; Aliyeva ve Alieva 2015:337-342).

Cəmiyyətin inkişafı problemi, dəyərlərin dəyişməsi və onların yeni şəraitdə yenidən qiymətləndirilməsi, modernləşmə və yeni şərtlərə uyğunlaşma ilə bağlı məsələlər K.Marks, F.Engels, I.Kant, F.Nitşe, H.Spenser, E.Dürkheym, M.Veber, E.Giddents və b. kimi görkəmli alimlərin diqqət mərkəzində olmuşdur.

K.Marksın cəmiyyətin inkişafı nəzəriyyəsində inkişafın üç mərhələsi kateqoriyalarda öz əksini tapmışdır: inqilabi praktika, ümumi əmək və izafi dəyər. K.Marks Avropanın modernləşməsi faktlarına əsaslanaraq sübut etmişdi ki, insan cəmiyyəti hər mərhələdə müxtəlif sosial təbəqələrin mənafeyinə uyğun ziddiyyətlərin yaratdığı sinfi mübarizə

nəticəsində inkişaf edir. Üstəlik, dövrlərin hər biri tarixidir, yəni müəyyən şəraitdə zamanla yaranır, inkişaf edir və yox olur (Oyzerman 1962:524-539; Hundt 1975).

H.Spenserin nöqteyi-nəzərindən sosial təkamül cəmiyyətin özünün mürəkkəbləşməsi yolu ilə mütərəqqi inkişafı və sosial institutların, ilk növbədə siyasi institutların fəaliyyətinin təkmilləşdirilməsidir. Cəmiyyətin inkişafı fərdlərin fiziki və mənəvi fəaliyyətindən, fərdlərin inkişafı isə cəmiyyətin fəaliyyətindən asılıdır. Sosial təkamül prosesində insanların kollektiv fəaliyyətinin əhəmiyyəti artır, cəmiyyətin bir çox funksiyaları dəyişir. H.Spenserin sosial sabitlik problemi ilə bağlı mülahizələrinə görə, sosial tarazlıq adaptiv hərəkətlərin, insanların və sosial institutların maraqlarının ahəngdarlığının, insanların və sosial institutların hərəkətlərində kompromislərin nəticəsidir (Kapitonov 2000:157-162; Kultygin 2000:202-212).

E.Durkheim XIX əsrin sonu - XX əsrin əvvəllərində sosioloji pozitivizmin görkəmli nümayəndəsidir. Onun fikrincə, klassik sosiologiya insanların kollektiv şüurunun inkişaf etdirdiyi sosial faktlar, yəni ideyalar, normalar, dəyərlər haqqında elmdir. Onların cəmiyyət üzvlərinə təsiri kollektiv instinktlərlə deyil, sosial institutlar (hüquqi, dini və s.) vasitəsilə şüurlu şəkildə təşkil edilir və həyata keçirilir. Dürkheimin dəyərlər məsələsi ilə bağlı mövqeyi tarixi baxımdan daha çox maraq doğurur: onun ideyalarının elmin indiki vəziyyətinə uyğun olması ehtimalı azdır.

Dəyərlər çox mücərrəd bir kateqoriyadır və buna görə də filosoflar və sosioloqlar tərəfindən asanlıqla istifadə olunur. Qəribə haldır ki, günümüzün bir çox filosof və sosioloqlarının əsərlərini nəzərdən keçirəndə E.Dürkheim və V.Paretonun dövründən sonra vəziyyətin nə qədər az dəyişdiyinin şahidi olursan. Bəzi filosof və sosioloqlar reallığın tədqiqinə apriori kateqoriyaların təsir edici dəsti ilə (Dürkheim ifadəsi ilə "müqəddimələr") başlayırlar. Digər tərəfdən, görünür, dəyərlərin öyrənilməsində açıq-aşkar irəliləyiş var - nəhayət ki, sosiologiya bu problemin empirik tədqiqatlarına gəlir. Doğrudur, əgər müəyyən bir qrupun dəyərlərinin sosioloji sorğu metodu ilə öyrənilməsindən danışsaq, onda belə bir araşdırmanın nəticəsi daha çox elmlə deyil, Burdyenin ardıcıllarının dili ilə desək, "siyasi-jurnalistika sahəsinə".

Belə bir fərziyyə də var ki, dəyərlər təbiətdə şüursuz (qeyriixtiyari) ola bilər (hərəkətlər üçün motiv kimi çıxış edir). Doğrudur, bu halda (şüursuz motivlər halında) münasibət və ustanovka anlayışlarının yerinə dəyərlər anlayışından istifadə etməyin məqsədəuyğunluğu məsələsi yaranır. Əgər dəyərlərin həmişə şüurlu olduğunu fərz etsək və bu konsepsiyanın mücərrədliyindən və deməli, mənalılığından irəli gəlir. Bu halda dəyərlərin dərin, "keyfiyyətli" metodların köməyi ilə öyrənilməsi perspektivi daha çox əhəmiyyət kəsb edir (Dyurkgeym 2002:11-31; Kukushkina 2013:215-229).

Maks Veberin dəyərləri yenidən qiymətləndirməsi onun dəyərlərin mənasına dair yeni bir anlayış təklif etməsi ilə deyil, elmdə hər hansı bir dəyər məzmununun öz mənasını itirdiyi bir metodologiya inkişaf etdirməsindən ibarət idi. Bu, iki əsas metodoloji prosedurun qurulması ilə həyata keçirilir: 1) elmi tədqiqat qiymətləndirmədən azad olmaq tələbinə tabe olmalıdır və 2) dəyər məzmununun deformasiyaya uğradığı, rəsmiləşdirildiyi, "deaksiologiyalaşdırıldığı" ideal tiplərin qurulmasından istifadə etməlidir. Nəticədə dəyər plüralizmi əldə edilir. İndi insan elmin köməyi ilə yeni dəyərlər axtara bilməz, ancaq onları yarada bilər (bu, Nitşeyə görə insanın daha bir çağırışıdır!), baxmayaraq ki, bu vəziyyətdə dəyərlər əvvəlki dövrlərdən tamamilə fərqli bir xarakter daşıyır. Bundan sonra onlar yalnız insanın iradəsinə arxalanır və subyektivliyi özündə ehtiva edir.

Dəyərlər fərdlər, ilk növbədə xarizmatik liderlər, peyğəmbərlər, demaqoqlar və dahilər tərəfindən yaradılır və qeyri-insani, transsendent reallıqdan qaynaqlanmır. Onlar obyektiv deyillər, onlardan ardıcıl sistem və iyerarxiya qurmaq mümkün deyil, ona görə də yadlaşma, mübarizə vəziyyəti, əhəmiyyətin itirilməsi və deməli, təsirin zəifləməsi ilə xarakterizə olunur. Bu baxımdan Volfqanq Şlüxterin Fridrix Nitsşe haqqında dediyi sözlər Veberə aiddir: "O, yenisini yaratmaq üçün köhnə əxlaqın məkanını təmizləyirdi" (Schluchter 1996:180).

Maks Veber üçün dəyərlərin yaradıcısı əvvəlcədən müəyyən edilmiş "xeyir" və "şər"in deyil, müxtəlif situasiya ilə müəyyən edilmiş üstünlüklərin seçimi ilə üzləşən fərdin özüdür. Əgər öncədən əvvəlki dəyərlərin "təmizlənməsi" olmasaydı, bu seçim mümkün olmazdı. Nəticədə deyə bilərik ki, aksioloji fikir tarixində neokantizm ənənəsində formalaşmış metodologiyadan istifadə edərək Maks Veber Fridrix Nitsşenin çağırdığı dəyərlərin yenidən qiymətləndirilməsini həyata keçirir. Maks Veber Nitsşe və ya Kant ənənəsində ərimədən nəinki müasir sosiologiyanın klassiki oldu, həm də aksioloji fikrə orijinal töhfə verdi. Onun ideyalarının inkişafının nəticəsi, neo-Kant ənənəsinə uyğun olaraq dəyərlərin obyektivliyinə dair əvvəlki postulasiyanın rədd edilməsi və gələcəkdə dəyərlər sisteminin elmi əsaslarla qurulması imkanlarının inkar edilməsidir. Digər qənaətimiz ondan ibarətdir ki, bununla sekulyar dünyada yeni dəyərlər dünyagörüşünün əsasını qoymaq cəhdi oldu. (Weber 1990; Schluchter 1996:166–185; Turner 1993; Turner 2011; Fleischmann 1964).

## TƏDQİQATIN METOD VƏ METODOLOGİYASI

Tədqiqatın müxtəlif mərhələlərində elmi idrakın əsas metodlarından, o cümlədən induksiya, deduksiya, sistemli-müqayisəli təhlil və sintez metodlarından istifadə edilmişdir. Mövzu ilə bağlı ədəbiyyatın kompleksli (sistemli) təhlili aparılmışdır.

## ƏSAS HİSSƏ

Qeyd olunan tezislər tədqiqatımızın əsas xətlərini təşkil edir. İlk növbədə "dəyər" anlayışının mahiyyətini açıqlayaq. Dəyərlər insanın ehtiyacı olan həm maddi, həm də mənəvi tələbatları ödəmək üçün bir şeydir. A.İ.Kravçenkoya görə, dəyərlər insanların davranışını motivləşdirir və yönəldir. Onlar necə fərdlərin, eləcə də ayrı-ayrı qrup insanların və bütövlükdə cəmiyyətin davranışının oriyentasiyasının və mövqenin formalaşmasında özündə şərtləndirici amil təşkil edir (Kravchenko 1999:72). Sosiologiya fərdi, qrup və yaxud ictimai tələbatları ödəməyə qadir olan sosial dəyərləri öyrənir. Onlar cəmiyyətdə müxtəlif funksiyaları yerinə yetirərək həmçinin maddi və mənəvi olur və sosial prosesləri tənzimləyir. Dəyərlər həmçinin cəmiyyətin bütövlüyünü təmin edən fundamental normalar kimi özlərini təzahür edirlər. Dəyərlər, tələbatlar və davranış motivləri bir zəncirin halqalarıdır. İnsan öz ehtiyacı olana nail olmaq üçün can ataraq, şüurlu olaraq öz davranışını konkret dəyərlərə yönəldir. Hər bir insanın öz dəyərlər "iyerarxiya"sı vardır, hansı ki, şəxsiyyətin formalaşması dövründə cəmləşir. Dəyərlər sistemi genetik ötürülmür, ancaq sosiallaşma zamanı cəmiyətdə formalaşır; yəni sosiallaşmanın nəticəsidir, onun müqəddiməsi deyil. Əgər fərdin sosiallaşması prosesi təhrifedici amillərin təsirinə düşmədən norma çərşivəsində gedirsə, o zaman formalaşmış şəxsiyyətin dəyərlər sistemi ictimai dəyərlərin şkalası ilə üst-üstə düşür (eyni olaraq uyğun gəlir). Bu halda subyektiv və obyektiv dəyərlər şkalaları üst-üstə düşürlər. A.İ.Kravçenkonun qeyd etdiyi kimi, şəxsiyyət və cəmiyyət ən vacib dərərləri vətənpərvərlik, ədalət, alturizm, pasifizm və s. etiraf edirlər. Beləliklə, insanın dəyərlər şkalası onun şəxsiyyətini müəyyən edir və cəmiyyətlə qarşılıqlı münasibətini

tənzimləyir (Kravchenko 1999:73-75). Səhv sosiallaşması halda şəxsiyyət cəmiyyətlə ziddiyyətə girir, çünki onların dəyərlər şkalası üst-üstə gəlmir.

Dəyərlər yalnız nəticə deyil, həm də sosial inkişafın mexanizmidir. Hər bir cəmiyyətin dəyərlər sistemi onun mədəniyyətinin səviyyəsinə uyğundur, çünki o, müəyyən olan əsas dəyərlərdən toplanır, hansılarla ki, bu cəmiyyətin çox hissəsi razıdır (Asp 2000:122). Dəyərlər adət, ənənə, qanunlar kimi, mənəvi mədəniyyətin bazis ünsürüna aiddir və cəmiyyətdəki insanların davranışını tənzimləyərək onun normativ sistemini təşkil edir. Mədəniyyətin normativ sisteminə həm də qayda, etiket və kodeks daxildir. Ancaq bunlar onun əlavə ünsürləridirlər, çünki bunlar hər cəmiyyətdə mövcud deyil və demək ki, bunlar mütləq olmalı deyil (Kravchenko 1999:163-164).

Mədəniyyətin normativ sistemində sosial dəyərlər xüsusi funksiya yerinə yetirirlər: onlar mədəniyyətdə nəyə hörmət olunmalı və nə saxlanılmalı məsələsində göstəriş verirlər. Beləliklə, mədəni normalar – sosial normaların bir təzahür formasıdır.

Qloballaşma dövründə Azərbaycan cəmiyyətinin transformasiya prosesində ictimai inkişafın mənəvi-mədəni oriyentasiyasının dəyişməsi dövlətin vacib bir vəzifəsifir. İctimai şüurun transformasiyası zamanı dəyərlər münaqişəsi qaçılmaz olur. Şəraitin dəyişməsi ilə mentalitet dəyişir; bu düzünə mənəvi dəyərlər və prioritetlər sferasının dəyişikliklərinə adaptasiya prosesilə əlaqəlidir. Transformasiya sosiallaşma, milyonlarla insanların yeni şəraitdə mövcudluğu üçün sosial-mənəvi adaptasiya prosesi ilə əlaqəli problemlər doğurub. Belə ki, amerikan politoloqu Z.Bjezinski belə sərt qənaətə gəlmişdir ki, hələ “50-70 il tələb olunacaq ki, transformasiya xəttini yaşayan ölkələrin əhalisi, yeni sosial mühiti obyektiv optimizasiya olunmuş kimi qəbul edə bilsinlər” (Danilov 1998:14-16).

Transformasiya siyasətini həyata keçirərkən, nəzərə almaq lazımdır ki, yeni sosial dəyərlər, norma və davranış motivləri mühitin uzunmüddətli təsiri nəticəsində formalaşacaq. Uzun zaman müddətində “seleksion” iş gedəcəkdir: köhnə cəmiyyətin bəzi ənənəvi dəyərləri yaşamaqda davam edəcək, öz dəyərini saxlayacaq və yeni şəraitdə də qəbul olunacaqdır. Onlar yeni sosial dəyərlərlə qarşılıqlı əlaqəyə girəcəklər və köhnə yeni ilə bu qarşılıqlı əlaqənin nəticəsində yeni cəmiyyətin yeni dəyərlər şkalası yaranacaqdır (Danilov 1998:288).

Azərbaycanda, MDB-nin digər dövlətlərində olduğu kimi XX əsrin 90-cı illərindən başlayaraq sosial-mədəni istiqamətlərin (oriyentirlərin) çox mühüm dəyişiklikləri baş vermişdir. Bu bilavasitə postsosialist cəmiyyətlərin böhran vəziyyətdən çıxması ilə əlaqədardır, ancaq transfotmasiya prosesinin başa çatması ilə əlaqədar deyil. Cəmiyyətin müəyyən hissəsi üçün yeni sosial mühit “doğma şərait”kimidir. Ancaq əksəriyyət üçün, münasibətlərin yeni standartları şəxsi müvəffəqiyyətə imkan yaratmır (Danilov 1998:295).

İnsanların həyat fəaliyyəti çox hallarda cəmiyyətdə nə dərəcədə əlverişli mənəvi atmosfer hökm sürməyindən, mənəvi-psixoloji mühitin necə olmasından asılıdır. Cəmiyyətdə mənəvi dəyərlər əsasında yaranan mənəvi münasibətlər ailə, istehsal və millətlərarası sferalarda təzahür edilir. Qeyd edək ki, cəmiyyətin mənəvi həyatı insanların ictimai şüuru ilə qabaqcadan müəyyən edilir və müəyyən baxışların, ideyaların, əhval-ruhiyyənin, müəyyən əxlaqi normaların və digər mənəvi dəyərlərin reallaşdırılmasını özündə əks etdirir. Eyni zamanda, mənəvi yaradıcılıq mənəvi dəyərlərin yaranması vasıtəsilə mənəvi təlabatların ödəməsinə istiqamətlənir. İnsanlararası mənəvi münsibətlər – mənəvi təlabatların ödəməsi prosesində yaranan münasibətlərdir. Mənəvi dəyərlər isə onların şüurunun, həmçinin ictimai şüurun təcəssümüdür (Filosifiya 1998:386-387). Siyasi, hüquqi, əxlaqi, estetik, dini və digər ictimai şüurun formaları bir biri ilə sıx qarşılıqlı əlaqədədir və bir birinə qarşılılıqlı təsir

göstərirlər. Və bu da qanuna uyğundur, çünki bütün bunlar daima qarşılıqlı təsirdə olan cəmiyyətin həyat sferalarında öz əksini tapır. Beləliklə, ictimai şüur müəyyən icmanın və sosial həyatın bütün tərəflərinin bütövlüyünü şərtləndirir.

SSRİ-nin dağılması ilə əlaqədar Azərbaycanda siyasi sistemin dəyişilməsi baş verir. Bununla əlaqədar ayrı-ayrı dövlət siyasi xadimlərin olduğu kimi, geniş xalq kütlələrinin də bütövlükdə siyasi şüurun rolunun artması müşahidə olunur. Yeni ictimai münasibətlərə və hüquqi dövlətin quruculuğuna keçid şəraitində hüquq yaradıcılığı prosesi güclənir. Bütün bünlar öz növbəsində hüquqi şüurun aktivləşməsinə səbəb olur və beləliklə hüququn aliliyi bir dəyər olaraq qəbul edilir.

Hazıda Azərbaycan cəmiyyətində dini şüurun inkişafı müşahidə olunur, hansı ki, xalqın mənəvi nailiyyəti üçün böyük əhəmiyyəti vardır. Bununla bərabər, keçid dövründə, köhnə ənənəvi dəyərlər sistemi dağılır və hansısa an adətlərin öz dəyər və əhəmiyyətininin itirilməsi müşahidə olunur. Ancaq, yeni cəmiyyətə uyğun əxlaqi və estetik normaların yaranması ilə xalqın mənəviyyatı zənginləşir və müəyyən dərəcədə də, müvafiq olaraq insanlar arası münasibətlər humanistləşir. Belə ki, yeni cəmiyyətin formalaşması zamanı ictimai şüurun dinamikliyi yüksəlir və bu da insanların yaradıcılıq aktivliyinin yüksəlməsini tələb edir. Onun aydın məqsəd və vəzifələr əsasında dərk edilmiş olması vacibdir. Göründüyü kimi, yeni siyasi sistemə keçidlə əlaqədar ictimai şüurun bütün formalarının əhəmiyyəti artır. Müxtəlif hadisələrin dərk edilməsi və ictimai həyatın proseslərinə aktiv təsir göstərməsi üsullarının işlənib hazırlanması prosesi gedir.

İctimai inkişafın keçid dövrlərində həmişə dəyərlərin yenidən qiymətləndirilməsi problemi yaranır. Köhnə dəyərlərin inkarı kəskin sosial dəyişikliklərə, şəxsiyətin oriyentasiyasının itirməsinə (çaşqınlığa) və bənzərsizliyə gətirir, yəni cəmiyyət və şəxsiyyətin həyatının köhnə formalarının inkarına.

Dəyərlər oriyentasiyası determinasiyası, şəxsiyyətin davranışı və onun sosiallaşmasının vacib amili müxtəlif növ cəmiyyətlərin sosiomədəni spesifik dəyərləridir. Buna əsaslanaraq, bəşəriyyət tarixinin iki ən əhəmiyyətli dəyərlər paradiqmasını nəzərdən keçirək – Şərq və Qərb, hansı ki, Azərbaycan cəmiyyətində yeni tərzdə qlobalaşmanın da təsiri ilə inteqrsiya olunur. Bu iki mədəniyyətlərin dəyərlərinin müqayisəli təhlili, şərq ənənələrinə xarakterik olan insan-cəmiyyətlə-təbiət birliyi, ədalət, humanizm, səmimiyyət, böyüklərə hörmət, təvazökarlıq, vətənpərvərlik, avtoritarizm, ailə kultu və cəmiyyət böyük ailə kimi qəbul edilməsi barədə müddəaları göstərir. Burada şəxsiyyətin tərbiyəsində və sosiallaşmasında əsas ustanovka dünyanın dəyişdirmə və özünə tabe edilməsində (fəth etməsində) deyil, özünü dəyişdirmə, özünü təkmilləşdirmədədir. Qərb ənənələrinə görə isə şəxsiyyət və cəmiyyətin qarşıdurması xarakterikdir, fərdi dəyərlər ictimai dəyərlərin üstündə prioritet təşkil edir. Birincilik təşkil edən dəyərlər sırasında fərdiyyət, pul, birincilik, aqressivlik, gənclərə hörmət, qadınların cəmiyyətdə hüquq bərabərliyi. Şəxsiyyətin sosiallaşması ilk növbədə sosial mühitin, təbiətin və bütün dünyanın dəyişməsilə səciyyələnir (Filosofiya 1998:501; Aliyeva 2003:144-145).

XX əsrin 90-cı illərindən başlayaraq şəxsiyyətin sosiallaşması kontekstində Azərbaycan cəmiyyəti üçün daha bir aktual və vacib problemlərdən biri də bazar dəyərləri və qloballaşmanın təsiri olmuşdur. Həmin dövrdən başlayatraq bütün postsovet məkanı və əlbətdə ki, Azərbaycan bu arada məsuliyyətli tarixi dövr – yeni sosial münasibətlərin bərqərar olmasını, yəni bazar münasibətlərinə keçid və daha sonra qloballaşma dövrünü yaşayır. Üstəlik bu proses nəinki iqtisadi, həm də bütün ictimai münasibətlərin dəyişməsi ilə bağlıdır. Beləliklə, insanların dəyişməkdə olan həyat tərzi müvafik olaraq şəxsiyyətin dəyərlər oriyentasiyasının, davranış

motivasiyasının və bünün sosiallaşması prosesinin dəyişməsinə gətirməyə bilməz. Bazar münasibətlərinin təsiri şəxsiyyətin formalaşmasına eyni təsir etmir. Bazar münasibətlərinin mahiyyətini təşkil edən rəqabət, iqtisadi liberalizm, gəlirpərəstlilik şəksiz ki, şəxsiyyətin təşəbbüsünü, insanların aktivliyini oyandırır və şəxsiyyətin yaradıcılıq inkişafının imkanlarını genşləndirir. Digər tərəfdən, bazar münasibətləri və qloballaşmanın təsiri ikilik əxlaq, psixoloji frustrasiyalar, nevrozlar, ümumi özgələşmə və s. kimi nəticələrə də gətirib çıxarır. Bazar münasibətləri kor təbii surətdə əmələ gəlir və inkişaf edir və insan belə mühitdə əksər vaxtlarda özünə inamsızlıq hiss edir. Onun dəyərlərinin çoxu bazar və qloballaşma prizmasından keçərək, bazar və qloballaşma xarakteri (xüsusiyyəti) əldə edir. Üstəlik, bu nəinki maddi, həm də mənəvi dəyərlərə də aiddir. Bazar münasibətlərinin inkişafı prosesləri və onların şəxsiyyətə təsiri təfəruatı ilə K.Xorni, E.Fromm, C.Homans və b. tanınmış alimlər tərəfindən öyrənilmiş və şərh edilmişdir. Onların fikirlərinə görə, bazar münasibətlərinin hökmranlıq etdiyi şəraitində şəxsiyyət çox hallarda həyatının mənasını təşkil edən öz ali dəyərlrini itirir. Nəticədə "ekzistensial vakuum" əmələ gəlir. Və əgər bu vakuum yeni dəyərlər oriyentirlərlə dolmayacaq, şəxsiyyət deqradasiyaya uğrayır. Bunun baş verməməsi üçün bütün cəmiyyətin deqradasiyasının qarşısını almaq məqsədilə birgə sintezdə iqtisadi liberalizm və sosial ədalət dəyərlərinin inteqrasiya olunması zəruridir. Sosial ədalətin qaynağı isə dövlət strukturları olmalıdır, hansı ki, iqtisadiyyatın sosial oriyentasiyasından (Filosofiya 1998:501-503), bazar qanunlarına meyilli olmayan cəmiyyətin mənəvi dəyərlərinin formalaşmasından (hansılar ki, dəyərlər sistemində itkiyə uğrayanları doldurmaq iqtidarındadır və şəxsiyyətin həyatının mənasını doldurmağa qadirdir) kənar durmamalıdır. Nəinki dövlət strukturları, həm də dini təşkilatlar və kütləvi informasiya vasitələri (KİV) həm şəxsiyyətin, həm də bütövlükdə cəmiyyətin mənəvi bütövlüyünün yenidən bərpa edilməsi prosesində təsir göstərmək iqtidarında olmalıdırlar. (Aliyeva 2003:283-291; Aliyeva ve Ismailova 2012:128-130; Uluslararası İnsani Değerlerin Yeniden İnşası Sempozyumu 2015).

## NƏTİCƏ

E.Giddensin haqlı olaraq qeyd etdiyi kimi, biz hazırda "yüksək modern" dövrünü yaşayırıq. Bunun arxasında nə dayanır? Biz post-modernliyə hər hansı müəyyən məna verə bilərikmi? Gələcəyə yönəlmiş layihələr kimi, eyni zamanda inkişafın immanent meyllər ilə əlaqəli və buna görə də real olan hansı utopiyaları təklif edə bilərik? Çox güman ki, biz postmodern nizamın konturlarını müəyyən edə bilərik və belə bir nizamın həyata keçirilə biləcəyini göstərən müəyyən əsas institusional meyllər mövcuddur. Müasirlik gündəlik sosial həyatın təbiətini kökündən dəyişdirir və təcrübəmizin bir çox fərdi aspektlərinə təsir göstərir. Postmodern sistem institusional cəhətdən mürəkkəb ola bilər və biz onu dörd dəyişikliyin hər biri boyunca modernləşmə "naminə" hərəkatın ifadəsi kimi xarakterizə edə bilərik: çoxpilləli demokratik iştirak; demilitarizasiya, texnologiyanın humanistləşdirilməsi və "yoxsulluqdan sonrakı sistem" (Giddens 1990:164).

Bu gün Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlət qurulmasının aktiv prosesi gedir. Bu proseslər cəmiyyətin müxtəlif qrur və təbəqələrinin dəyərlər oriyentasiyasının və onların psixologiyasının dəyişməsi ilə müşahidə olunur. İqtisadi bazisinin və eləcə də siyasi üstqurumunun dəyişikliklərinin tempi və xarakteri əksər hallarda ölkədə bərqərar olunmuş struktur-iqtisadi, siyasi, konkret-tarixi və etnomədəni şəraitdən asılıdır. XX əsrin 90-cı illərindən başlayaraq Azərbaycanın sosial strukturunda ciddi keyfiyyət və kəmiyyət dəyişiklikləri baş verir. Onlar iqtisadiyyatın struktur dəyişiklikləri, yeni mülkiyyət formalarının formalaşması və yeni ictimai münasibətlər

sisteminin yaranması və sözsüz ki, ölkənin dünya birliyinə inteqrasiyası və qloballaşma ilə şərtlənir. Bütün bunlarla əlaqəli milli dəyərlər sözün geniş mənasında öz sərhədini və əhəmiyyətini itirir (Rukavishnikov 1994:26). Beləliklə, qeyd olunan hadisələrlə əlaqədar köhnə fəaliyyət növləri yoxa çıxır və yeniləri əmələ gəlir. Adaptasiya üçün isə onlara yeri gəldikdə ixtisasını dəyişdirmək və yeni biliklər əldə etməsi üçün zəruri şərait lazımdır. Beləliklə, həm ayrı-ayrı şəxsiyyətdən, həm də bütövlükdə cəmiyyətdən yeni şəraitə müəyyən çeviklik göstərməyi və adaptasiyası tələb olunur. Bu – yeni həyat şəraiti ilə irəli sürülən, yeni tələblərdir. Çünki, bu gün biz qarşılaşdığımız qlobal problemlər yalnız dərk ediləcək və müəyyən məqsədə yönəldilmiş səylər nəticəsində həll oluna bilər. Ancaq, bunun üçün insanların ölkədə və dünyada baş verən proseslər haqqında informasiyaya malik olması və adekvat mənəvi dəyərlər sistemi normalarının yaradılması prosesinin praktik surətdə reallaşdırılması zəruridir. Bu vəzifəyə həm də cəmiyyətin yeni yaranmaqda olan sistemə hazırlanması və fəal şəkildə məlum normalara qoşulması daxildir.

## ƏDƏBİYYAT

Aliyeva, Y. & Aliyeva, S. (2015). *Yeni ortamda şahsiyet ve toplumsal değerler sisteminin yeniden değerlendirilmesi ihtiyacı* / Uluslararası İnsani Değerlerin Yeniden İnşası Sempozyumu. 19-21.06.2014, Erzurum, Atatürk Universitesi. Tebliğler. Cilt 3. Atatürk Ünivesitesi Yayınları. Türkiye, Erzurum. 337-342.

Aliyeva, Y. & Ismailova, S. (2012). Tsennosti kak vazhneyshiy atribut obshchestva i lichnosti. Neobkhodimost' ikh sistemnoy pereotsenki v novykh usloviyakh (Tsennosti kak vazhneyshiy atribut obshchestva i zhizni cheloveka. Neobkhodimost' ikh sistematicheskoy pereotsenki v novykh usloviyakh). *XVII Mezhdunarodnaya nauchno-prakticheskaya konferentsiya na temu: «Sistema tsennostey sovremennogo obshchestva».* 19-23 yanvarya 2012g. Mezhdunarodnaya akademiya nauk i vysshego obrazovaniya (MANVO), Vsemirnaya federatsiya nauchnoy analitiki. Velikobritaniya, London: Odessa v presse. 128-130.

Aliyeva, Y. (2003). *Sootnosheniye lichnostnoy i obshchestvennoy sistem tsennostey, neobkhodimost' ikh pereotsenki v novykh usloviyakh. Mezhdunarodnaya nauchnaya konferentsiya "Lomonosov-2003" na temu "Rossiyskoye obshchestvo i sotsiologiya v XXI veke: sotsial'nyye vyzovy i al'ternativy".* 30.09-02.10.2003. MGU im. M.V. Lomonosova, fakul'tet sotsiologii. Tom 1. Rossiya, Moskva: Max-Press: 283-291.

Asp, E. (2000). Vvedeniye v sotsiologiyu. Sankt-Peterburg: Aleteyya.

Danilov, A. (1998). *Perekhodnoye obshchestvo: problemy sistemnoy transformatsii*. Minsk: OOO “Urozha”.

Dyurkgeym, E. (2002). Opredeleniye moral'nykh faktov / Per. s fr. A.B. Gofman // *Teoreticheskaya sotsiologiya. Sbornik*: V 2-kh ch. / Pod red. Bankovskoy S.P. CH.1. Moskva. 2002: 11–31.

Filosofiya (1998). *Uchebnik. 2-ye izd., isp. i myach*. / Pod red., V. N. Lavrinenko, Moskva: Yurist.

Fleischmann, H. E. (1964). De Weber à Nietzsche // *European Journal of Sociology*. Vol. 5. Issue 02. December. 190–238.

Giddens, A. (1990). *Consequences of Modernity*. Cambridge.

Hundt, M. (1975). *Kak voz"k «Manifest».* (per. s nem.). Moskva: Politizdat.

Kapitonov, E. A. (2000). *Istoriya i teoriya sotsiologii: Sotsiologiya XXI veka*. Moskva: PRIOR. 157-162.

Kravchenko, A. (1999). Sotsiologiya: Uchebnik dlya studentov vuzov. Yekaterinburg: Delovaya Kniga.

Kukushkina, Y. I. (2013). *Istoriya sotsiologii: Uchebnik*. Moskva: INFRA-M.

Kultygin, V. P. (2000). *Klassicheskaya sotsiologiya*. Moskva: Nauka. 202-212;

Oyzerman, T. (1962). *Manifest Kommunisticheskoy partii. Stanovleniye filosofii marksizma*. Moskva: Mysl.

Rukavishnikov, V. (1994). Sotsiologiya perekhodnogo perioda *// Sotsiologicheskiye issledovaniya*, 6: 26-28.

Schluchter, W. (1996). *Unversöhnte Moderne*. Frankfurt am Main.

Turner, B. S. (2011). *Max Weber and the spirit of resentment: The Nietzsche legacy* // Journal of Classical Sociology. February. 75–92.

Turner, B. S. (1993). *Max Weber: From History to Modernity*. London.

Uluslararası İnsani Değerlerin Yeniden İnşası Sempozyumu (2015). 19-21.06.2014, Erzurum, Atatürk Universitesi. *Tebliğler*. Cilt 1-3. Türkiye, Erzurum: Atatürk Üniversitesi Yayınları.

Weber, M. (1990). *Izbrannyye proizvedeniya*. Moskva.